## KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**UOT 791**

**Aysel Ağaşirin qızı Rüstəmova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**E-mail: aysel.rustemliar@mail.ru**

# YARADICI HEYƏTİN SƏNƏDLİ FİLMLƏRDƏ İŞIQLANDIRILMASI

**Xülasə:** Məqalədə yaradıcılıq prosesinin kinematoqrafiyanın təməllərindənbiri sayılmasından, heyətin audio vizual ekranda vacib məqamları dəqiqliklə göstərilməsindən danışılmışdır. Filmlərin kökünün kinostudiyalardan qaynaqlandığından fərqli peşə mütəxəssislərinin iş fəaliyyətinin quruluşundan söhbət açılmışdır. Sənədli filmlərin ekrana çıxarılmasında komanda üzvlərinin ümumi quruluşa tabeliyindən bəhs edilmişdir. Ssenaristin insan, həmçinin fərdi, ictimai hadisələrə aid xüsusiyyətlərinin qələmə alınmasının, rejissorun sənədli filmin istehsalında fəal təşkilatçı hesab edilməsinin, təsvir rejissorunun filmin vizual həllində görüntü konsepsiyasının rolunun, bəstəkarın sənədli filmin süjet xəttində əsas element funksiyası formasında izahı açıqlanmışdır.

**Açar sözlər:** yaradıcı heyət, istehsal prosesi, ssenarist, rejissor, təsvir rejissoru, bəstəkar

İnsanların görüntüləri canlandırmaq arzusu həm ictimai mühitdə, həm də kütləvi bir mənzərədə çalışmaqdan ibarət idi. Buna görə kino həyatımıza natamam olan çalarları – sevgi, ünsiyyət, fəlsəfi fikirlər və s. gətirdi. Yalnız elmi-texnoloji irəliləyişin müvəffəqiyyətini deyil, həmçinin mədəniyyətin inkişaf tələblərini üzə çıxardı. XIX əsrin sonlarında formalaşmış bir sıra sənət sahələrini üstələdi, izləyiciyə gözlənilməz dərəcədə böyük təsir edərək bədii obrazın orijinallığını reallıq istəyi ilə nümayiş etdi.

Həyatı filmin ekranında yaratmaq üçün mütərəqqi təmələ ehtiyac var. Yaradıcılıq fərdiliyimizi düşünmədən sənət yarada bilmirik, bunun üzərində peşəkar iş, dərin auditoriya kütləsinin marağına səbəb olacaq ölçüdə tamaşaçılara ömür boyu fəaliyyət sahəsi kimi təqdim edilir. Film ərsəyə gətirmək yaradıcılıq prosesi istəyir, bu cür işlərin toplumu hər zaman pərdə arxasına keçirdi, izləyicinin ancaq fəaliyyətinin yekunu, məhsulu dəyərləndirilirdi. Film istehsalının ayrılmaz tərkib hissəsi sayılan yaradıcılıq prosesi əsasən kinematoqrafiyanın təməllərindən biri hesab edilir.

Keyfiyyətli bir film insanı olmuş hadisələr haqqında düşünməyə vadar edir. Yaradıcı heyətin vəzifəsi vizual təsvirdə ən mühüm məqamları dəqiqliklə göstərməkdir. Kinostudiyalarda filmin əsası qoyulur, çoxlu miqdarda müxtəlif peşə mütəxəssislərinin kinematoqrafik resursda çalışma qrupunun iştirak etməsi haqqında qərar istehsalçı tərəfindən ərsəyə gəlir. Bu işləmə metodikasına məsuliyyət, diqqət tələb olunur. Filmlərin istehsalının planını qurarkən ancaq sənayenin inkişafı nəzərdə tutulmur, həmçinin ekran məhsulunun toplusu, kino əsərlərinin tematik yönümü, zəruri sayda əmək, maddi vəsaitlərin konkret kəmiyyəti hesaba alınır. Sənədli film janrında yaradıcılıq tərzi kinoda öz spesifikliyi ilə fərqlənir. Seyrçiləri ölkəmizdə və onun sərhədlərindən kənarda həyatın rəngli dünyası ilə tanış etmək üçün sənədli filmlərin ekrana çıxarılmasında operativlik çox vacibdir. *Martınenko yaradıcı heyətin iş metodu haqqında bu cür münasibət bildirir: "Sənədli yaradıcılıq bir paradoksdur: o, həyatı təsvir edərkən həm dəqiqliyi, həm də dəqiqlikdən kənara çıxmağı tələb edir"* [4, s.27]. Ssenarilərin qurulmasında çəkiliş materiallarına müraciət edilən baş redaksiyalar xüsusi əhəmiyyət kəsb edir. Sənədli filmlərin çəkilişləri fərqli üsulla aparılır. Burada xronika studiyalarında pavilyon, dekorativ konstruksiyalar üçün hazırlanan emalatxanalar kompleksi, səhnə hissəsi, aktyor seçimi ilə bağlı şöbələrin rolu olmur. Sənədli film yaradıcısı tarixi faktların sintezindən keçir, lakin onun üçün təqdimatın detallılığı başlanğıc deyil, əsas məqsəd deməkdir. Başlanğıcda ekran əsəri proqnozlaşdırılır, plan qurulur, filmin heyəti müəyyənləşir və çəkiliş qrupu təşkil olunur. Bu prosesdə bədii yaradıcılıq və texniki fikir eyni dərəcədə vəhdətdə olur. Sənədli filmin komanda üzvləri öz xüsusi vəzifəsinə cavabdeh olaraq hazır məhsul istehsalını ortaya çıxarmaqdan ötrü işə cəlb olunurlar. Bunlar istehsal dönəmində unikal mövqe tuturlar. Sənətkarın filmdəki yaradıcılıq potensialı ciddi formada tənzimlənir və ümumi quruluşa tabe olur. Audiovizual təsvirin gizli obrazları ssenaristlərdir. Ssenari müəllifinin kinoda aktiv rolu yazıçı kimi filmlərə, televiziya verilişlərinə, mediaya əsaslanır. Ssenarilərin hamısı müəllif tərəfindən hazırlanır. Onlar yetərli qədər həyati və mənəvi güc toplayaraq yaradıcı düşüncənin sahibinə çevrilirlər. Ssenarist ssenari üzərində çalışarkən seyrçi psixologiyasını nəzərdə tutaraq tamaşaçının fikrini saxlamaq üçün qayda-qanunlara əməl edir və ekranda göstərir.

Fərqli bir ssenarist olmaq üçün ssenarilərə, proyektlərə dönüş yaratmaq lazımdır. Müvəffəqiyyətli ssenari izləyiciləri personajlarla bərabər tutmalı, əhvalatın daha dibinə getməli, heyrətləndirməli və hər biçimdə razı salmalıdır. Ssenarist olmaq üçün bu peşədə təcrübə keçmək önəmlidir. Həmin sahədə nailiyyət əldə etmək böyük zəhmət tələb edir, ssenarist personajların əhval-ruhiyyəsini yaxşılaşdırmağa cavabdeh olur. Ssenari müəllifinin vəzifələri bunlardır:

1) Maraqlı hekayələr üçün davamlı tədqiqat işi aparmaqla izləyiciləri qane edəcək mövzuları müəyyənləşdirməli;

2) Rejissor, başqa peşə mütəxəssisləri ilə səriştəlik etməli.

Ssenari fikirdən qaynaqlanır, ssenaristlər düşüncələrini yazmaq və satmaqdan faydalanırlar. Onlar üçün yazı önəmli məsələdir. Əsası ədəbi yaradıcılığa yaxın olmasına baxmayaraq, yazıçıdan fərqlənir. Ssenaristlər sərbəst müqaviləyə əsasən işlərini yerinə yetirən şəxslərdir. Onların işi, vəzifəsi maraqlı hekayələri insanlar üçün uyğunlaşdırmaqdır. Özəl ssenarilər çox zaman peşəkar, həvəskar ssenaristlər tərəfindən yazılır. Peşəkar ssenaristə görə heç bir təhsil istənilmir, istedad bacarığı vacib şərtdir, ən əsas yaxşı yazmaq qabiliyyəti və yaradıcılıq fantaziyası əhəmiyyət daşıyır, bundan başqa həmin ssenaristlər çox zaman maddiyyatsız işləmir, həvəskar ssenaristlər isə marağa görə ssenarilər hazırlayırlar, mənfəət güdmədən öz yaradıcı məhsullarını film mütəxəssislərinə həvalə edirlər. Ssenari müəllifinin başqa xüsusiyyətləri bunlardır:

– Filmlərdə, ictimai tədbirlərdə təfəkkürün yeridilməsi;

– Reklam çarxları hazırlanmasında mətnin yazılması.

İlk görünüşdən hadisələri göstərmək ssenarinin zəruriyyətindən asılıdır, görüntünü axtarmaq, sənədli bir gerçəkliyi yaratmaq sənətkarın gücündən irəli gəlir. Ssenari müəllifi reallıqların mənasını təcrübəsinə, istedadına uyğun olaraq qiymətləndirir, canlı həyat hadisələrini maraqlı, dinamik bir formada izləyiciyə çatdıra bilir. Filmin ideyasının açıq formada izahı ilə çağdaş dövrümüzün doğru qəhrəmanlarının portretlərini ekranlaşdırır. Ekran sənədinin obyektiv əhəmiyyətini, qavrayış xüsusiyyətlərini təmin edir, əsas materialla həyatı nəzərdə tutur. Ssenarist özünəməxsusluğunun bədii tipik nöqtəsinə insan, eləcə də fərdi, ictimai hadisələrə məxsus xüsusiyyətlər aiddir.

Ssenaristin yaradıcılıq axtarışında funksiyası iki növə ayrılır:

1. Təsvirin, real hadisənin ardıcıllığı ilə üst-üstə düşür;

2. Müəllifin düşüncəsi həqiqətin istənilən bir sferasını seçilmiş faktlar üzərində irəliyə doğru hərəkət edir.

Sənədli film ideoloji mədəniyyətə köklənir. Ssenarist sənədli film çəkməyin planını qurarkən vəziyyəti, filmin ideyasını, əsas bədii cihazını öncədən konkretləşdirir. Tam bir bədii obraz yaratmaq səbəbi ilə sənədli filmin yaradıcılıq bucağını, çəkiliş məkanını, görüntünün obyektini kompozisiyada ifadə edir. Ssenaristin orijinallığı süjetə əsaslanır, mətnin vizual təsvirdə yer alacağını bilir. Ssenarist yazılı mətnə quruluş verir, personajların təsvirini, məlumatlarını epizodlara bölür və planı hazırlayır. O, plastik görmə bacarığına məxsusdur, səs, ekran spesifikliyi və hərəkət gücünü hiss edir. Həmin sahənin özəyinin mahiyyət funksiyası bu cür növlərə ayrılır:

1) Yaradıcılıq fəaliyyətinin müstəqil formalaşması;

2) Peşə sahibinin düşüncələrinin tamaşaçıya çatdırmaq qabiliyyətinə yiyələnməsi;

3) Sanballı ssenari mətnlərinə davamlı olaraq tələb istəyi.

Ssenari müəllifi müxtəlif hekayələr yazan bir mütəxəssis nümayəndəsidir. Belə işçilər kino, televiziya, reklam agentliklərində, müxtəlif, tədbir və şou proqramlar üzrə təcrübə keçmiş şirkətlərdə çalışırlar. Ssenaristə şəxsi yazılı tapşırıq təklif irəli sürmək mümkündür. İstehsal şirkəti ilə razılaşmaya gəldikdə onlara "açıq" tapşırıq deyilir. Layihəni sonlandırdıqdan sonra kino nümayəndələri ilə ünsiyyət yaradır və işi ona təhvil verir. Ssenaristlər az hallarda filmin inkişaf prosesinin iştirakçısı olurlar, bəzən məsləhətçi kimi çıxış edirlər. Ssenariyə həvəs göstərilməsə, layihə uğursuzluğa səbəb olur. Buna görə bacarıqlı qrup təşkil edilməlidir. Filmin çəkiliş prosesində ssenarist yaradıcı heyət nümayəndələri ilə ən birinci olaraq rejissorla aktiv qarşılıqlı münasibət yaradır. Ssenari müəllifi düşüncələrini kağıza, rejissor isə filmə köçürür. Ssenarist rejissorun istəyini anlamalı, ardıcıl, məntiqi formada süjetə çevirməyi bacarmalıdır. Sənətdə üsullar ümumilikdə müəllifin iradə gücündən asılı olur.

Rejissor – planını düzgün quran və heyətlə birgə çalışan kinematoqrafı rejissor adlandırmaq olar. Rejissor fransız sözündən götürülüb idarə etmək mənasını ifadə edir. Onun vəzifə funksiyası filmin təşkilini yaratmaq, sərbəst vaxt qrafikinə uyğunlaşmaq, ekranda görüntünü seyrçiyə çatdırmaqdır. Quruluşçu rejissor filmin hazırlanmasında əsas yaradıcı şəxsiyyətdir. O, filmin bədii keyfiyyətinə, istehsalına cavabdeh olaraq çəkilişin fəal təşkilatçısı sayılır. Rejissor kinematoqrafiyada həyatın atomlarını ekranda açıq formada vizuallaşdırır. Sənədli kinorejissoru bədii düşüncənin sənət tərəfindən yönəldilmiş "kəşfiyyatçısı" adlandırmaq olar. Rejissorluq, mürəkkəb fəndir, müxtəlif biliklərlə zənginləşir. Maraqlı ixtisas kimi fərqlənsə də iş özülü məhz kinorejissorun işidir. Rejissora görə kino özünün hisslərini, istəklərini demək üsuludur. Özünəməxsus istedadı ilə kağızda yazılanları izləyicinin ekrandan aldığı vizual, səsli effektə çevirə bilir. Rejissor əvvəldən bütün prosesi bilməlidir və tələblərini düzgün formada qeydə almalıdır. M.İ.Romm rejissor barədə şəxsi fikirlərini belə izah edir: *"Rejissor öz işinin nəticəsini hər gün lent üzərində olan kadrlar şəklində təhvil verməyə borcludur"* [5, s.83]. Kinorejissor müxtəlif alətlərdə ustalıqla müşayiət edən musiqiçi qrupundan ibarət orkestr dirijoruna oxşayır. İş prosesinin gedişində rejissor dilindən "Kəsin!" sözü deyildikdə çəkiliş dayandırılır, əlavə vaxt gərəkli sayılsa yenidən təkrarlanır. Sənədli filmin inkişafında rejissorun rolu filmdəki işinin ssenaridən başlamasıdır. Ssenarinin tələblərinə uyğun məkan seçilməsi kinorejissorun istəyinə əsasən, tam cavab verir. Rejissor ssenarini bütöv

formada yerinə yetirmək üçün bədii, texniki elementlərə diqqət ayırır. Özü, yaxud təcrübəli bir ssenaristlə birgə ssenarini yazaraq epizodun çəkiliş planını təsvirlə boyaya bilər. Çox hallarda ssenariyə düzəlişlər artırır, dizaynla bağlı fikirlər yönəldir, istehsal prosesində cavabdehlik daşıyır. Rejissorluqda ən mühüm qanunlardan biri də başqa sahələrdə olduğu kimi öz işinə həvəslə yanaşmaqdır. Filmin tam yaradıcı tərəfinə peşəkarcasına yanaşır, çəkilişdən əvvəl onun planını öncədən tərtib edir, hansı çatışmazlıqlar varsa, bu haqda açıqlama verir. Mövzu ilə əlaqədar araşdırmada filmin məzmununu, çəkiliş qrupunu, vaxtını müəyyənləşdirir. Kinorejissor filmin hissə-hissə fraqmentlərini, ekran əsərinin bütövlüyünü verir. Audiovizual təsvirin məzmununa əsasən çəkiləcək məkanların seçilməsində texniki detallara görə müvafiq şərait yaradır. Filmin sonunda izləyicinin gözündə layihənin uğurlu və uğursuz olması rejissorun işinə əsasən qiymətləndirilir. Sənədli filmin xammalının nəticəsi rejissordan asılıdır. O, həyat hislərini, mədəniyyətini, bir sözlə, sənədli obrazı yaradan, müşayətçi sənətkardır. Rejissor, fərqli texnoloji, yaradıcı vasitələrdən istifadə edərək düşüncələrini təcəssüm etdirir və olmuş hadisələri gerçəkliyin kontekstində seyrçini cəlb etməklə ona təsir edə bilir.

Sənədli film rejissorların böyük nailiyyətlər əldə etdiyi metodlara əsaslanır. Onun önündə daim bu cür sual formalaşır, yığılmış materialları seyrçiyə hansı formada təqdim etmək olar. Yəni kinorejissor gələcək filmini tanıtmaq üçün cəhd edir. Mövzunu müəyyənləşdirməkdə çətinliklə rastlaşmır, təsvirin dərininə getmək üçün keçmişin, gələcəyin hadisələrini istədiyi ölçüdə nümayiş etdirməyi bacarır. Belə ki, sənədli film kinorejissorun hədəf nöqtəsini, həqiqət faktorunu ekranda əks etdirməkdir. Sənədli filmin rejissoru obrazın təsvirinin yenidən kəşfini verir, insanı zamanın, mühitin, sənətinin, başqa sözlə, vətənin müdafiəçisi kimi təqdim edir. Rejissor üçün həm qəhrəman seçimi, həm də bu qəhrəmanı tipik bir şəxs kimi göstərmək çətinlik yaradır. Sənədli kinematoqrafiya obrazı yaratmaq üçün xüsusi iki qaydadan istifadə edir: düz və əks. Birdən qəhrəmanın çəkilməsində düz qaydaya müraciət edirlər. Əks qəhrəman haradansa çıxarılması mümkün olmadıqda gərəkli sayılır. Filmin gedişatında qəhrəmanın yarımçıq saxladığı məkanda ləvazimatlardan, etdiyi kəşflərdən və dostların xatirələrindən şəxsiyyət canlanır. Beləliklə, kinorejissor bacarığının fiziki, estetik, zəkalı gücünü sənədli filmdə dolğunlaşdırır.

Təsvir rejissoru – əsas rolu aydın kompozisiya və hərəkətli görüntünün çəkiliş nöqtələridir. Təsvir rejissoru konkret görüntülü formaya malik olmaqla tamaşaçı qavrayışına inanılmaz təsir hissi ötürür. Kollektiv yaradıcılığın mühüm metodikasını, ekranda konkret formada vizual biçimdə göstərir. Təsvir rejissoru seçilmiş məkanın görüntü konsepsiyasına uyğun cavablandırır, kamera avadanlığını müəyyənləşdirir, çəkiliş üçün ən münasib vaxtı aydınlaşdırır, süni işıqlandırma vasitəsinə

olan ehtiyacı nəzərə alır. Təsvir rejissoru dəqiq baş verən hadisəyə reaksiya verməlidir, kompozisiyanın yaradıcılıq həllini, kadrın işıqlandırma effektini tapmalıdır. O, lazımi çəkilişlərdən istifadə edərək ekran təsvirinin dinamikliyini qaldıra bilər, predmet barədə bədii təsəvvürü dəqiq hala salmaq və dərin ifadəni ekran mətnində təkrarlayaraq gərəkli reportaj verə bilir. Xüsusiyyətlər bunlardan ibarətdir:

a) Təsvir rejissoru hadisənin nə cür inkişaf etdiyini əvvəldən düşünərək tapşırığın uğurlu həyata keçirilməsi üçün hərəkətin müddətini konkretləşdirir, qeydə alınmış mərhələləri nəzərə alaraq kadrı çəkir.

b) Hadisənin harada olacağından təsvir rejissoru o məkanda tanış olur, çəkiliş nöqtələrini seçir, hansı optika və obyekt arasında müşahidə aparmaqla işıq cihazlarının düzülüş mexanizmini, sinxron kameranı qurmaq prosesini həll edir.

Təsvir rejissoru yaradıcı qrupun üzvüdür, rejissorun göstərişinə tabe olaraq kameranı hərəkətə gətirir. Hər ikisi birlikdə çəkiliş meydançasında çalışır, gerçək hadisələrin, faktların, xarakterlərin kinematoqrafiya modelini yaratmağa şərait tapır. Ən vacib detallar bunlarla xarakterizə edilir:

1. Təsvir rejissoru bütöv bacarıq xüsusiyyətlərinə yiyələnməlidir;
2. Yaradıcılıq sahəsinin zərifliyinə ömür boyu sahiblənməlidir;
3. Rejissor film çəkmədən əvvəl ssenari ilə tanışlığını təsvir rejissorundan istəməlidir.

Təsvir filmdə əks olunur, təsvir rejissoru kinorejissorla bərabər iş planlayır, dramaturgiyanın əlamətlərindən istifadə edirlər. Təsvir rejissoru çəkilişin texniki keyfiyyətini, kompozisiya tamlığını idarə edən bir peşəkar kimi filmin vizual həllinə əsas diqqət göstərir. O, əlində kamera vasitəsi ilə yaşam dünyasına diqqətcil baxan ədalətli jurnalistdir. Daim hadisələrin gedişatında gələcəyin konturlarını, dövrün xarakterik xüsusiyyətlərini özündə birləşdirir. Kamera texnikası çətin və fərqlidir, müxtəlif kranlar, qarışıq tellərlə atəş edir. Bunlar hamısı təsvir rejissorun evidir, filmin tərkibinə əlavə edilir.

Təsvir rejissoru sənədli filmin görüntüsünü hazırlamaq üçün yaradıcı, texniki funksiyaları cəmləşdirən bir kinematoqrafçıdır. O, müstəqil olaraq həqiqətin ekran yaradıcısıdır, hadisələri filmə çəkməklə ən mühüm, tipik reallıqları ümumiləşdi- rir. Bir fenomeni, predmeti, detalları göstərə bilir, insanın jest və mimikalarının əlamətlərini, fərqli hərəkət növlərini, surətini məlumatlandırır. *Ənvər Qafarlı təsvir rejissorunun iş metodu barədə belə demişdir: "Operatorun əsas vəzifələrindən biri həyatdakı reallıqları təhrif etməmək, çəkiliş zamanı hadisənin ən vacib anlarını kadrlarla kamerasına köçürməklə yaradıcı düşüncəsini bura təsvirlərlə əlavə etməkdir. Operator sənətkarlığı, yaradıcılığı ekranda tamaşaçı gözündən yayınmır. Bəzən çəkiliş zamanı operator hadisə ilə "təkbətək" qalır"* [1, s.87]. Təsvir rejis-

soru yaradıcılıq məsələlərini xüsusi vasitələrlə sənətinin dili ilə çatdırır. Bundan əlavə o, hərəkət edən vizuallığı yaradır, arzu olunan keyfiyyətə sahib olmaqla çəkilişin fərqli üsullarını açıq tərzdə göstərir, obrazları ümumi mərkəzə çəkərək təsviri canlandırır. Çəkilişlər ərəfəsində yaradıcılıq fikri müəyyənləşdirilir, eskiz layihələri yerinə yetirilir, kollektivin hazırlıq işləri əsl bir tərzdə həllini tapır. Onun yaradıcılıq axtarışı peşəkar qabiliyyətinə həmişə güvənir, müəllif mövqeyi filmin uğurunun daha dərindən nüfuzunu artırır. Mütəxəssis pavilyonda, açıq havada çəkiliş aparan, işıq cihazlarını quran, filmi çəkən texniki heyətə başçılıq edir. Belə ki, yaradıcı insan öz sənətində yeni qat yaratmaqla işinin ustası olur.

Təsvir rejissoru sənədli filmin bir çox özəl xüsusiyyətlərində yeni məna, məzmun kəsb edir. Yaradıcı şəxsiyyətin ifadəsinə geniş imkanlar açır, parlaq, inandırıcı obrazlarda həqiqəti təsəvvür etdiyi kimi göstərir. Sənədli filmdə çəkiliş nöqtəsi daim gerçəkliyin qiymətinin yekunudur, o filmin mövzusunu və müəllifləri düşündürən problemlərlə həll edilir. Çəkiliş prosesinin seçimi, icra edilmiş optikanın xarakteri hamısı yaradıcılıq nəticəsinə nüfuz edir. Sənədli kinoda təsvir rejissoruna məxsus əsas imkanlar reallığın yeni modelini qurmaqdır. Lakin izləyiciyə insanın xarici üzünü görmək mümkünlüyünü göstərmək, onun xüsusiyyətlərinin obyektiv konvensiallığını idarə edir. Sənədli filmdə bəzi fikirlər təsvir rejissoru təcrübəsinin əli ilə tamaşaçıya ideoloji, estetik təsir göstərir. Həyatın ən düzgün təsvirini, həqiqətlərin ölçüsünü seçir və onu filmdə ifadəli şəkildə çəkir.

Bəstəkar termini – xüsusilə kompozisiya texnikasını standart halda bir musiqi notuna yazır, ifaçı tərəfindən izah edir. O, film qurumunun işi ilə bağlantı yaradır, vizual təsvirə musiqi bəstələyir. Musiqini bəstələməzdən öncə bəstəkar görüntüdəki epizodları filmin süjetinə uyğun bir atmosferdə əldə edir. Filmdə ifa edilən mahnıların toplusu fərqli musiqi alətləri ilə müşayiət olunaraq bəstəkar tərəfindən vacib bir sənət elementi kimi kinonun komponentlərinin əsas vasitəsi hesab olunur.

Beləliklə, yaradıcılıq manerası kinematoqrafiyanın əsas kökü sayılır. Sənədli filmdə ən mühüm məqamların peşə sahibləri tərəfindən düzgün, məsuliyyətlə yerinə yetirildiyi özünü göstərir. Filmin kollektiv heyətinin mövqeləri və seyrçini başa düşəcəyi bir dildə məlumatlandırması öz təsdiqini tapır. Ssenari müəllifi canlı həyat hadisələrini, dövrümüzün real qəhrəmanlarını göstərmək prinsiplərini nümayiş etdirir. Rejissor vizual təsvirin istehsalında əsas qüvvə ambisiyasını çatdırır. Təsvir rejissoru kinematoqrafiya modelinin özəl xüsusiyyətlərini özündə əks etdirən tendensiyaları aydınlaşdırır. Bəstəkarın sənədli filmdə kompozisiyası vacib vasitə hesab olunur.

**Ədəbiyyat siyahısı:**
1.Qafarlı Ə. R. Televiziya jurnalistikasının əsasları. Bakı: Çənlibel, 2009, 160 s.
2.БэдлиХ. А. Техника документального кинофильма. М. Искусство, 1972, 240 с.
3.Горюнова Г. Н. Организация производства кинофильмов. М. Искусство, 1983, 216 с.
4.Мартыненко Ю. Я. Документальное киноискусство. М. Знание, 1979, 112 с.
5.Ромм М. И. Беседы о кинорежуссуре. М. Ордена Ленина типография, -1975, -287 с.

**Айсель Агаширин кызы Рустамова**

**ОСВЕЩЕНИЕ ТВОРЧЕСКОГО КОЛЛЕКТИВА В ДОКУМЕНТАЛЬНЫХ ФИЛЬМАХ**

**Резюме:** В статье говорится о том, что творческий процесс считается одной из основ кинематографа, а важные моменты съемочной группы точно показаны на аудиовизуальном экране. Поскольку происхождение фильмов берет свое начало от киностудий, обсуждается структура работы разных профессиональных киностудий. В статье рассказывается об иерархии участников коллектива в общей структуре производства документальных фильмов. В научном труде изучается описание сценаристом характеристик, связанных с человеческими, а также индивидуальными, общественными событиями, активные организторские качества режиссера в создании документального фильма, роль созданной оператором-постановщиком образной концепции в визуальном решении фильма, а также разъясняется функция основного элемента сюжетной линии документального фильма.

**Ключевые слова:** творческий коллектив, производственный процесс, сценарист, режиссер, оператор-постановщик, композитор

**Aysel Aghashirin gizi Rustamova**

**COVERAGE OF THE CREATIVE TEAM IN DOCUMENTARIES**

**Summary:** The article says that the creative process is considered one of the foundations of cinema, and the important moments of the film crew are accurately shown on the audiovisual screen. Since the origin of films originates from film studios, the structure of work of different professional film studios is discussed. It tells about the hierarchy of the team members in the general structure of

documentary film production. The scientific work examines the description by thescreenwriter of the characteristics associated with human, as well as individual, social events, the active organizational qualities of the director in creating a documentary film, the role of the figurative concept created by the director of photography in the visual solution of the film, and also explains the function of themain element of the storyline of the documentary film.

**Key words:** creative team, production process, screenwriter, director,cinematographer, composer.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 09. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**